İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 İYUL 2021-Cİ İL №014 (137)

Səh. 2 SÖZÜN HEYKƏLLƏŞMƏSİ - AZƏR MUSAOĞLU YAZIR

Səh. 3 ƏGƏR CƏMİYYƏTİN ALIN YAZISINI AĞARTMAQ İSTƏYİRİKSƏ... - HACI BƏKİROĞLU YAZIR

Səh. 5 PARAQVAY PAPAQLARI - İBRAHİMXƏLİL YAZIR

Səh. 5 BİR ÖLKƏDƏ ETİK HESAB EDİLƏN, DİGƏR ÖLKƏDƏ QEYRİ-ETİK HESAB EDİLƏ BİLƏR - AYGÜL İSAYEVA YAZIR

Səh. 6 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

Səh. 7 DOSTLUĞUN QALİBİYYƏTİ VƏ MƏĞLUBİYYƏTİ - VÜQAR VƏKİLOĞLU YAZIR

Səh. 7 SIFIR GÖZLƏNTİ- AYHAN HƏSƏNOV YAZIR

## BAŞ NAZİR ÖLKƏ MÜSƏLMANLARINI TƏBRİK EDİB



Baş nazir İrakli Qaribaşvili müsəlman həmvətənlərini Qurban bayramı münasibətilə təbrik edib.

Hökumət başçısı Gürcüstanın müsəlman icmasını cəmiyyətin ayrılmaz hissəsi adlandırıb.

İ.Qaribaşvili Qurban bayramının sevgi, dəstək, yardım və xeyirxahlıq bayramı olduğunu qeyd edib.

“Gündəlik əməyiniz və vətənə sadiqliyinizlə siz vətənimizin inkişafı və möhkəmlənməsinə əvəzsiz töhfə verirsiniz. Bayramınıza qoşularaq sizə və ailələrinizə firavanlıq, mənəvi rahatlıq və xoşbəxtlik arzu edirəm”, - deyə İ.Qaribaşvili müsəlmanları təbrik edib.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN 5820 NƏFƏR DÜNYASINI DƏYİŞİB



İyulun 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan 5820 nəfər ölüb.

Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 419534 nəfər, sağalanların sayı isə 382393 nəfər olaraq göstərilib. İyulun 31-nə kimi ölkədə 481591 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 54 nəfər, stasionar nəzarətdə 5651 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 1989 nəfə olaraq göstərilib.

## “GÜRCÜ ARZUSU” MER NAMİZƏDLƏRİNİN SİYAHISINI AÇIQLAYIB

Hakim Gürcü Arzusu Partiyası oktyabrın 2-si baş tutacaq yerli özünüidarəetmə seçkilərində mübarizə aparacaq mer namizədlərinin adlarını açıqlayıb. Namizədlərin siyahısı partiyanın rəsmi saytında yerləşdirilib.

Marneuli meri vəzifəsinə Kənan Ömərovun namizədliyi irəli sürülüb.

Xatırladaq ki, K.Ömərov bu ilin yanvar ayından Marneuli merinin müavinidir. O, bu təyinata qədər Marneuli Təhsil Resurs Mərkəzinin rəhbəri vəzifəsini tutub.

Qeyd edək ki, Marneuli meri vəzifəsi ötən ilin oktyabr ayından boş qalıb. Belə ki, sabiq mer Z.Darğallı parlament seçkilərində deputat mandatı əldə edib. Hazırda mer vəzifəsinin səlahiyyətlərini I müavin Zaur Tabatadze yerinə yetirir.

Digər bölgələrə gəldikdə isə, namizədlərin siyahısı belədir: Rustavi – Nino Laçabidze; Qardabani – Davit Qarqareteli; Bolnisi – Davit Şerazadişvili; Dmanisi – Koba Muradaşvili; Tsalka – İlia Sabadze; Tetritskaro – Giorgi Tsiklauri; Saqareco – Avtandil Qulikaşvili; Axalkalaki – Melkon Makaryan; Ninotsminda – Anivard Mosoyan və sair.

## PAATA İMNADZE: MÜƏLLİMLƏR VƏ VALİDEYNLƏR PEYVƏND OLUNARSA MƏKTƏBLƏRDƏ TƏHSİL TƏHLÜKƏSİZ OLACAQ

“Müəllimlər və valideynlər peyvənd olunarsa məktəblərdə təhsilin yenilənməsi təhlükəsiz olacaq. Axı uşaqlar virusa haradansa yoluxurlar? Uşaq ailədə, yaxud getdiyi yerdə virusa yoluxur”. Bu barədə Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbər müavini Paata İmnadze deyib.

“Əksər ölkələrdə uşaqların 12 yaşdan peyvənd edilməsinə icazə verilir. Çində artıq deyirlər ki, 3 yaşından da olar. Bu gün dünyada ən çox adam Çində peyvənd edilib. Bir milyard yarım peyvənd vurulub. Beynəlxalq təlimatlara daxil edilən kimi biz də bu barədə düşünə bilərik. Ona qədər isə uşaqların yoluxmaması üçün böyüklər peyvənd olunmalıdırlar”, - deyə P.İmnadze bildirib.



# SÖZÜN HEYKƏLLƏŞMƏSİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

"Müxbirlərimizdən biri idarəyə kağız yazır. Həmin kağızda cənab müxbir üzünü Borçalı bəylərinə, zənginlərinə tutub deyir: "Ey gözəl Borçalının minlərdən dəm vurub təkəbbürlüklərindən kimsəni tanımayan, özlərini pişrov *(irəlidə gedən, öndə olan, qabaqcıl – A.M.)* sayan fitnəkar bəyləri, ağaları və qızıllı-gümüşlü kəndxudaları! Haçana kimi insafdan kənar olub ciblərinizin xatirəsi üçün özünüzü qəflət uyğusuna məğlub edəcəksiniz? Fəqir-füqara, əlsiz-ayaqsız heyvanəbənzər "çoban-çoluqlar"ımızı oğurluğa, yol kəsməyə, nahaq qan tökməyə və qeyri pis-pis işlərə iqva edəcəksiniz? Tövrbətövr hiylələr, məkrlər, böhtanlar və fitnələrlə başlarına döyüb, min-min zəhmətlə, cövrü-cəfa ilə qazandıqları pulları əllərindən zülm ilə alıb çöllərdə avara-sərgərdan qoyacaqsınız? Polisə qulluqçuları ilə siğə qardaş olub fəqir-füqəranın qan təri ilə qazandığı pulu onların (polisə qulluqçularının) uğrunda xərc edəcəksiniz? Nə vaxtadək eyşü-işrətə məşğul olub məclislərdə quru-quru millət tərəqqisi barəsində "gop" edəcəksiniz. Bilmirsinizmi boş "gop" ilə plov olmaz: yağ, düyü gərəkdir? Haçan ətrafınıza nəzər yetirib həmsayələrinizdən *(qonşularınızdan – A.M.)* ibrət götürəcəksiniz? Məgər bu axır vaxt əziz, bəlakeş Qafqaz vətənimizdə vaqe olan nahaq qanlı hadisələr, top, tüfəng, bomba səsləri siz borçalıları xabi-qəflətdən oyatmadımı? Dost-düşmənlərinizi tanıdıb sizə yaxşı-yamanı bildirmədimi? Məgər qəzetələr verdikləri məlumatlara nəzər yetirib görmürsünüz, eşitmirsinizmi ki, qeyri şəhərlərdə, ölkələrdə sizin din qardaşlarınız qeyrətə gəlib tərəqqi yolunda artıq hümmət, həmiyyət göstərirlər?""

Səhv başa düşməyin, bunu nə bizim müxbirlərimizdən biri yazıb, nə də idarəyə göndərib. Bunu 1906-cı il iyunun 23-ü "Həyat" qəzetinin 136-cı nömrəsinin 3-cü səhifəsində "Nər" təxəllüsü ilə heykəli Borçalının düz köbəyində ucalan Nəriman Nərimanov yazıb. Mən də olduğu kimi burada tirajlayıram.

Nərimanova münasibətin birmənalı olmadığını bilirəm, indi onun adını, soyadını oxuyub üz-gözünü turşudanların olacağını da bilirəm. Amma bu yazının baş qəhrəmanı nə Nərimanovdur, nə də onun başıbəlalı heykəli, yazının baş qəhrəmanı Nərimanovun xitab etdiyi Borçalı bəyləri, ağaları və kəndxudalarıdır.

Yuxarıdakı yazının üzərindən bir əsrdən çox vaxt ötsə də, sanki ötən ayın 23-ü yazılıb. Sanki Borçalının köbəyində ucalan heykəl bir əlində kitab tribunaya qalxaraq üzünü Borçalının "minlərdən dəm vurub təkəbbürlüklərindən kimsəni tanımayan, özlərini pişrov sayan fitnəkar bəylərinə, ağalarına və qızıllı-gümüşlü kəndxudalarına" tutaraq yuxarıdakı dırnaq içindəki sözləri bağırmaq istəyir. Amma bağıra bilmir, sözlər də heykəl olur, daşlaşır heykəlin dodaqlarında, baxışında, duruşunda... və beləcə əsrdən-əsrə ötürülür.

Bəlkə də elə buna görə insanların heykəllərini ucaldırlar (Bəlkə də elə buna görə heykəlləri sökürlər, dağıdırlar). Nə vaxtsa bu heykəllərin də cana gəlib öz sözlərini, fikirlərini yenidən yüksəkdən hayqıracaqlarına inanırlar. Heykəllər danışmasalar da, onların daşlaşmış sükutu onsuz da görən gözlər, eşidən qulaqlar üçün sözdən, səsdən ibarətdir həmişə. Nərimanovun Marneulidəki heykəli, Qızılhacılıdakı büstü kimi...

Dənizlərdə gəmilərə yol göstərmək üçün mayaklar ucaldıldığı kimi, quruda da insanlara yol göstərmək, yolu işıqlandırmaq üçün mayak isnanların heykəllərini ucaldırlar. Əlbəttə, bu, heykəli qoyulan bütün insanlara aid deyil. Onsuz da zaman o heykəllərin daşını daş üstündə qoymayıb, qoymur və qoymayacaq.

Nərimanovun Borçalının mərkəzindəki heykəlinin üzündə isə yuxarıdakı sözlər daşlaşıb qalıb. Heykəlləşərək üzünü hələ də Borçalının "minlərdən dəm vurub təkəbbürlüklərindən kimsəni tanımayan, özlərini pişrov sayan fitnəkar bəylərinə, ağalarına və qızıllı-gümüşlü kəndxudalarına" tutaraq üzərindən bir əsrdən çox vaxt keçməsinə baxmayaraq onların hələ də cibləri xatirəsi üçün qəflət yuxusuna məğlub olduqlarına; hələ də fəqir-füqəra, əlsiz-ayaqsız insanları oğurluğa, yol kəsməyə, nahaq qan tökməyə və digər pis əməllərə vadar etmələrinə; hələ də zəhmətkeşlərin zülmlə qazandıqları pulları hiylə və böhtanlarla əllərindən almaqlarına; fəqir-füqəranın qan təri ilə qazandığı pulu polislərə yem etmələrinə; hələ də eyş-işrətlə məşğul olub məclislərdə millətin tərəqqisi barəsində goplamalarına; hələ də dost-düşməni tanımamalarına; əl-ələ verib birlikdə çalışa bilməmələrinə etiraz edir. Bəzən də az qalır bütün bu nadanlıqlardan, hansısa bir tərsanın dedi-qodularından postamentindən birtəhər qoparaq əlindəki kitabını da götürüb buralardan qaçsın – ya Bakıya, ya da Kreml divarı nekropolunda külünün uyuduğu Moskvaya. Çünki yuxarıda dırnaq içərisində yazılanlar hələ də aktualdır...

# İQTİDAR-MÜXALİFƏT RAZILAŞMASI POZULUB



Hakim Gürcü Arzusu Partiyası bu ilin aprelin 19-da müxalifətin bir hissəsi ilə imzaladığı siyasi razılaşmadan çıxıb. Bunu partiyanın sədri İrakli Kobaxidze iyulun 28-də keçirilən brifinqdə bildirib.

Onun sözlərinə görə, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin himayəsi altında hazırlanan sənəd imzalandıqdan 100 gün sonra müxalifətin qeyri-konstruktivliyi səbəbindən uğursuzluğa düçar olub.

"Radikal müxalifət yerli seçkilər öncəsi siyasi qütbləşməni dərinləşdirmək üçün əlindən gələni edir. 19 aprel razılaşması öz müsbət rolunu oynayıb – müxalifət sabotaja son qoyub", - deyə İ.Kobaxidze bildirib.

O, qeyd edib ki, bu gündən etibarən Gürcüstan konstitusiya quruluşuna qayıdır və siyasi proseslər ali qanun çərçivəsində davam etdiriləcək: "Biz növbədənkənar parlament seçkiləri təyin edə bilərik, lakin bu, yalnız hakimiyyətin xoş niyyəti ilə olacaq".

Gürcüstanın müxalifət cəbhəsində hakim partiyanın razılaşmanı birtərəfli qaydada tərk etməsi kəskin qınanıb. Qeyd edək ki, iqtidar-müxalifət razılaşmasından sonra Gürcüstanda 2020-ci ilin noyabrından davam edən siyasi böhran başa çatıb. Belə ki, parlamentə seçilmiş müxalifət nümayəndələri qanunverici orqanın boykotunu dayandırıblar. Sənədin bir bəndinə qeyd olunub ki, hakim "Gürcü Arzusu" bu ilin okyabrında yerli idarəetmə orqanlarına keçiriləcək seçkilərdə 43 %-dən az səs toplayarsa, ölkədə növbədənkənar parlament seçkiləri təyin olunmalıdır.

# İSTEFA VERƏN AZƏRBAYCANLI MƏMURLAR MÜXALİFƏT PARTİYASINA QOŞULUBLAR



İyulun 15-i və 20-si vəzifələrindən istefa verən Rəfi Orucov və Ayaz Məmmədov müxalif Vahid Milli Hərəkat Partiyasına (VMHP) keçiblər. Bu haqda partiya liderlərindən biri David Kirkitadze brifinqdə bildirib.

D.Kirkitadze Gürcü Arzusu Partiyasının dağılmaq üzrə olduğunu deyib.

"Son zamanlar ölkədə baş verənlər yüksək dövlət vəzifələri tutan bu şəxsləri istefa verməyə məcbur edib. Biz "Gürcü Arzusu"nu siyasi arenadan tezliklə sıxışdırıb çıxaracağıq", - deyə D.Kirkitadze bildirib.

Qeyd edək ki, R.Orucov Qardabani bələdiyyə məclisinin sədr müavini, Qaratəhlə kəndinin deputatı, A.Məmmədov isə Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin Kvemo Kartli bölgəsi üzrə müşaviri olub.

VMHP 2001-ci ildə təsis olunub, lideri Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili, sədri isə Nika Meliadır.

# VAHİD MİLLİ HƏRƏKAT PARTİYASININ SƏDRİ DEPUTAT MANDATINDAN İMTİNA EDİB



Müxalif Vahid Milli Hərəkat Partiyasının (VMHP) sədri Nika Melia deputat mandatından imtina edib. Siyasətçi bu barədə keçirdiyi brifinqdə bildirib.

O, tam olaraq qarşıdan gələn seçki prosesinə cəlb olunacağını bildirib.

N.Melia parlamentdə təmsil olunan VMHP nümayəndələrini qanunverici orqanda formal olaraq qalmağa çağırıb.

Qeyd edək ki, N.Melia ötən ilin oktyabrında keçirilən parlament seçkilərində deputat seçilsə də, nəticələri tanımadığından qanunverici orqana daxil olmaqdan imtina edib. O, bu ilin mayından parlamentdə təmsil olunmağa qərar verib.

VMHP sədri bu ilin oktyabrına təyin olunan yerli seçkilərdə Tbilisi meri postu uğrunda mübarizə aparacaq.

Hakim Gürcü Arzusu Partiyasının Tbilisi şəhərinin meri vəzifəsinə namizədi isə hazırkı mer Kaxa Kaladze olacaq. 43 yaşlı K.Kaladze 2017-ci ilin oktyabr ayından paytaxtın meridir.

# TÜRKİYƏ GÜRCÜSTANIN MÜDAFİƏ QÜVVƏLƏRİNƏ TEXNİKİ XİDMƏT MAŞINLARI TƏHVİL VERİB

Gürcüstanın Müdafiə Nazirliyinin məlumatına əsasən, Türkiyə hökuməti Gürcüstanın Müdafiə Qüvvələrinə 4 ədəd texniki xidmət maşını təqdim edib.



Texnikanın tədarükü haqqında müqavilə ötən ilin oktyabrında imzalanıb. Maşınların ümumi dəyəri 866 400 ABŞ dolları təşkil edir.



Nəqliyyat vasitələrinin rəsmi təhvil vermə mərasimində Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze, Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Giorgi Matiaşvili və Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan iştirak ediblər.

# TÜRKİYƏNİN DƏSTƏYİ İLƏ İMKANSIZ AİLƏLƏRƏ QURBAN ƏTİ PAYLANIB

Hər il olduğu kimi 2021-ci ilin Qurban bayramında da Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı Türkiyədə fəaliyyət göstərən Əziz Mahmud Hüdayi Vəqfinin dəstəyi ilə Gürcüstanın müxtəlif bölgələrində yaşayan imkansız və ehtiyac sahibi olan ailələrə qurban əti yardımı paylayıb.





Həmçinin Bütün Gürcüstan Müsəlmanları İdarəsi, Türkiyə Diyanət Vəqfinin Gürcüstan nümayəndəliyi, yerli və xarici iş adamları da qurban kəsərək ehtiyacı olan ailələrə qurban əti paylayıblar.

# TÜRKİYƏDƏKİ MEŞƏ YANĞINLARI NƏTİCƏSİNDƏ 8 NƏFƏR HƏYATINI İTİRİB

Türkiyədə 28 iyul tarixində Antaliyanın Manavgat şəhərində başlayan və 21 fərqli bölgədə davam edən yanğınlara müdaxilə hələ də davam edir.

"Yeni Yol" Türkiyə mətbuatına istinadən xəbər verir ki, yanğınlar nəticəsində Manavgatda 7, Muğlanın Marmaris bölgəsində isə 1 nəfər həyatını itirib. Minlərlə heyvan tələf olub, meşə və əkin əraziləri ilə bölgədəki istixana sahələri də külə dönüb. Yanğınların təhlükə yaratdığı kənd və digər məskunlaşma yerlərindən əhali təxliyə olunub.



Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin son şərhlərinə əsasən, 57 nöqtədə yanğınlar idarə altına alınıb, yanğının davam etdiyi yerlərdə isə vəziyyət yaxşıya doğru gedir.

Dost və qardaş Türkiyə dövlətinə və türk xalqına səbr, vəfat edənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyir və tezliklə bu yanğınların söndürülməsini arzu edirik.

# ƏGƏR CƏMİYYƏTİN ALIN YAZISINI AĞARTMAQ İSTƏYİRİKSƏ...



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Uca Allah insanı "əşrəfi məxluqat", yəni məxluqların ən şərəflisi olaraq yaradıb, sonra isə insan ən aşağı səviyyəyə düşürülüb. Necə ki, Allah-Təala "Tin" surəsində bir neçə dəfə and içdikdən sonra buyurur: **"...Biz insanı ən gözəl şəkildə yaratdıq. Sonra isə onu aşağıların ən aşağısına düşürdük..."** Burada aşağı düşürdük deyərkən yolunu azmış insanlardan söz gedir. İnsan yaradılış şəkli olan ən üstün mərtəbəni əldə tuta bilməsi üçün Allahın qoyduğu qanunlardan kənara çıxmamalıdır. Daim nəfs və şeytanla mücadilə halında olmalıdır.

Əgər bu üstünlüyü qoruyaraq İslama uyğun bir şəxsiyyət, islami bir nəsil yetişdirmək istəyiriksə, əvvəlcə özümüzü inkişaf etdirməli, sonra Darül-Erkamlar quracaq gənc nəsilləri yetişdirməliyik ki, səhabələr kimi dinə sahib çıxacaq nəsillər yetişsin. Ancaq islami bir nəsil ola bilmək və yetişdirmək asan deyil. İslami bir nəsil –dinini tanıyan, gözəl əxlaqa sarılan, doğru yoldan çıxmayan, həyatını elmə həsr edən, təqva zirehini geyinən, ixlas ilə yaşayan və ən əhəmiyyətlisi də tək rəbb olaraq Allahı tanıyan bir nəsil deməkdir.

Bütün ölçülərdə yetişmiş və tərbiyə görmüş nümunəvi şəxsiyyətləri (zehni, fəlsəfi və əfsanəvi olaraq deyil) gerçəkdə var olduqları şəkildə tanımaq, bu şəxsiyyətlərə və bu böyük dinə yenidən dönmək deməkdir. İslamın quruluşunda yenilik etmək, yenidən nümunə göstəriləcək bir insan meydana gətirmək və bu bir-birinə qarışmış olan, hər səhifəsi, hər hissəsi bir başqasının əlində olan Kitabı ilk dövrlərində olduğu kimi tam bir ruh olaraq toplamaq deməkdir.

Yaxşı, bəs bu ruh nə vaxt ilk günlərindəki halına dönəcək? O ilk günlər ki, iyirmi üç il içərisində vəhşi insanlarla bu dünya arasında sivilizasiya yaratdı, tarixin axış istiqamətini dəyişdi. Bu ruh artıq bir daha var – dövlətini İslam yolunda xərcləyib geriyə nə buraxdın sualına "Allah və Rəsulunu" cavabını verən hz. Əbu Bəkir yetişdirəcəkmi? "Fərat kənarında bir oğlaq itsə (yaxud bir qurd bir qoyunu yesə) qorxuram ki, qiyamət günündə onun belə hesabı məndən soruşular!" deyərək ədalət simvoluna çevrilən hz. Ömər, məclisə girdiyində Rəsulullahın belə özünə çəki düzən verərək hörmət etdiyi, həya abidəsi hz. Osman, həm cəngavərliyi, həm də üstün biliyi ilə dillərə dastan olan, peyğəmbərin elm şəhərinin qapısı olaraq adlandırdığı hz. Əli yetişdirəcəkmi? Yarı vəhşi, oxuması-yazması olmayan, nəinki dünyadan, öz ölkəsindən belə xəbəri olmayan bir adamdan bir Əbu Zər Qıffari yetişdirəcəkmi? İnsanı, bütün insanlığı xoşbəxtliyə aparan yolda ilham qaynağı və məzlum xalqların ümidi olan bu ruh nə vaxt belə bir dəyişiklik edəcək?

Orta əsrlər tarixinin qaranlıqlarında bölünmüş olan bu bədəni yenidən birləşdirək. Birləşdirək ki, bu ruh əsl bədəninə dönsün və yuxuya dalmış bu bədən həzrəti İsrafilin üfürülmüş suru kimi iyirmi birinci əsrin ölmüş cəmiyyətlərinə həyat versin, onları hərəkətə gətirsin.

Təqvanı qazanmaq, nəfsi təmizləmək və özünü islah etmək, künclərə çəkilib, cəmiyyətdən qoparaq cəmiyyətin qədərindən qafil qalmaqla və ictimai məsuliyyəti unutmaqla olmaz. İslam bunu istəmir, qətiliklə istəmir. İnancımız, düşüncə tərzimiz və bu inancla yetişən insanlar bunu təsdiqləmirlər. İslamın yetişdirdiyi və tərbiyə etdiyi böyük insanlar da belə deyildilər.

Müsəlman bir insan xalqın qədərindən və düşüncə formasından Allah qatında məsuldur. Fikri, ictimai və gündəlik bir məsuliyyətdir bu, yaxşılığı əmr edib, pislikdən çəkindirmə məsuliyyətidir.

Əgər cəmiyyətimizin alın yazısını ağartmaq istəyiriksə, bu ümməti oyandırmaq və ölmüş cəsədinə yenidən ruh vermək niyyətindəyiksə dini ruhu canlandırmaqdan başqa çarəmiz yoxdur. İslamı içinə soxulan xurafatlardan, səhv inanclardan və mürtəce fikirlərdən təmizləyərək, müstəmləkəçiliyin girdiyi yolun tam tərsi bir istiqamətə aldığımızda vəzifəmizi bacarmamaq üçün heç bir səbəb qalmayacaq.

## MƏKTƏB DİREKTORUNUN HANSI ÖHDƏLİKLƏRİ VAR?




Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən qəbul edilmiş ictimai məktəb direktoru standartı məktəb direktorunun bilik və bacarıqlarını, peşə dəyərlərini və öhdəliklərini nəzərdə tutur.

"Etaloni.ge" direktorun təhsil prosesindəki hesabatlılığını təqdim edir:

**Təhsil prosesinin hesabatlılığı:**

1. Məktəb direktoru maraqlanan tərəflərin iştirakı ilə hesabatlılığın effektli, şəffaf, obyektiv mexanizmlərini, alətlərini yaradır və onun ictimailiyini təmin edir.

2. Məktəbin idarə prosesində demokratik dəyərlər, əxlaqi prinsiplərlə rəhbərlik edir və bunların məktəb həyatında təsis edilməsinə dəstək olur.

3. Bütün məktəb ictimaiyyətində öhdəliklər və hesabatlılığın effektli sisteminin tətbiq edilməsinin qayğısına qalır. Qanunvericiliklə tətbiq edilmiş qaydada məktəbin uğur və fəaliyyəti barədə hesabat təqdim edir.

**Təhsil prosesinin idarəsi və hesabatlılıq istiqamətində məktəb direktorunun səlahiyyətləri aşağıdakı şəkildə müəyyən edilib:**

a) Qarşılıqlı planlaşdırma və liderlik prinsiplərini bilmək, müvafiq alətdən məktəbin inkişaf strategiyasının planlaşdırılmasında, həyata keçirilməsi prosesində istifadə etmək;

b) Büdcənin tərtib edilməsi və maliyyənin idarə alətlərini bilmək və istifadə etmək;

c) İnsan resurslarının qiymətləndirilməsini, idarəsini və inkişaf prinsiplərini, strategiyanı bilmək və istifadə etmək;

ç) Araşdırmanın baza alətlərini bilmək və idarə prosesində onlardan məqsədyönlü istifadə etmək;

d) Məktəbin maddi resurslarını qoruyub-himayə etmək, effektli idarə alətlərini bilmək və istifadə etmək;

e) Əlavə resurslar və fondların müəyyən edilməsi, cəlb edilməsi strategiyasını bilmək və istifadə etmək;

ə) Şəbəkə və tərəfdaş əlaqələrinin yaradılma mexanizmini bilmək və məktəbin inkişafında istifadə etmək;

f) İkitərəfli hesabatlılıq və şəffaf idarəçilik prinsiplərini bölüşmək/riayət etmək və onların davamlı həyata keçirilməsi;

g) Keyfiyyətin təmin edilməsi sistemlərini bilmək və istifadə etmək;

h) Məktəbdə monitorinq, qiymətləndirmə və əks-təsir üçün effektli mexanizmləri bilmək və tətbiq etmək.

## MƏKTƏB DİREKTORU MƏZUNİYYƏTƏ ÇIXA BİLƏRMİ?



Müəllimlər artıq məzuniyyətdədir, bəs məktəb direktorları da məzuniyyətə çıxa bilərmi? Ümumtəhsil barədə qanuna əsasən, məktəb rəhbərinin məzuniyyətə çıxması müəyyən prosedurlarla əlaqədardır və bu məsələni yerli Təhsil Resurs Mərkəzi tənzimləyir. Məhz müvafiq orqanın razılığı ilə direktor məzuniyyətə çıxa bilər və onun məzuniyyətdən qayıtmaq sərəncamını da həmin orqan verir.

Ümumtəhsil barədə qanunda belə yazılıb: direktor ***"nazirliyin müvafiq ərazi orqanının razılığı, Abxaziya və Acara Muxtar Respublikası ərazisində isə təhsil sahəsində səlahiyyəti olan müvafiq nazirliyin razılığı ilə məzuniyyətə çıxır. Məktəb direktorunun məzuniyyətdən çağırılması nazirliyin müvafiq ərazi orqanının, Abxaziya və Acara Muxtar Respublikasının ərazisində isə təhsil sahəsində səlahiyyətli olan nazirliyin hüquqi səlahiyyətidir. Hərbi hazırlıq və təhsil həyata keçirən məktəb direktoru Gürcüstan müdafiə nazirinin razılığı ilə məzuniyyətə çıxır və onun məzuniyyətdən çağırılması da Gürcüstan Müdafiə Nazirliyinin hüquqi səlahiyyətidir".***

## DİSTANT TƏHSİL ÇIXIŞ YOLU DEYİL – TAMAR QABUNİA MÜƏLLİM VƏ MƏKTƏB HEYƏTİNİ PEYVƏND OLUNMAĞA ÇAĞIRIB



Distant təhsil bu problemin həlli deyil. Bu barədə səhiyyə nazirinin müavini Tamar Qabunia brifinqdə bildirib.

"Məktəblərlə bağlı şəxsən mənim, Səhiyyə Nazirliyinin əsas tövsiyəsi budur ki, məktəb kollektivi iyul və avqust aylarından peyvənd olunmaq üçün faydalansın. Belə olarsa məktəblər tədris ilini daha təhlükəsiz mühitdə qarşılayacaq.

Bu gün məktəb şəraitində məhdudiyyət qoymaq çıxış yolu deyil. Heç distant təhsil də bu problemin həlli deyil. Məsələnin həlli peyvənddir və məktəb mühiti ilə əlaqəsi olan hər kəsdən xahiş edirəm, peyvənd mərkəzlərinə müraciət etsinlər. Bu gün həqiqətən də peyvənd olunmaq üçün şərait var", - deyə nazir müavini bildirib.

## SENTYABRDAN MƏKTƏBDƏ VAKANSİYALAR ELAN EDİLMƏYƏCƏK – TƏCRÜBƏÇİ MÜƏLLİMLƏRƏ YENİ ŞANS VERİLİB



2021-ci ilin imtahanlarında müsbət nəticə əldə edə bilməyən və daha bir semestr ərzində işləyəcək təcrübəçi (praktikos) müəllimlərə kompetensiyalarını təsdiqləmək üçün yeni şans verilib. Onlar bu imkandan 2021-2022-ci tədris ilinin ikinci semestri başlayana qədər faydalanmalıdırlar.

"Məktəb rəhbərliyi 2021-2022-ci tədris ili başlayana qədər fənn, yaxud peşə qabiliyyəti imtahanında iştirak edən və statusunu yüksəldə bilməyən (statusu yüksəltmək üçün lazım olan 19 kredit bal toplaya bilməyənlər) təcrübəçi müəllimin yerinə 2021-2022-ci tədris ilinin ikinci semestri başlamamışdan 1 ay əvvəl müsabiqə elan edəcək". Bu barədə Müəllimlərin Peşə və Karyerada İnkişafı Sxemində edilmiş dəyişikliklərdə söhbət açılıb. Sənədi Baş nazir İrakli Qaribaşvili imzalayıb.

Xatırladaq ki, təcrübəçi müəllimlərin 2021-ci ilin yayında kompetensiyalarını təsdiqləmək üçün sonuncu şansları var idi. İmtahanı verə bilmədikləri halda isə məktəb rəhbərliyi 2021-2022-ci tədris ili başlayana qədər təcrübəçi müəllimin yerinə vakansiya elan etməli idi. Dəyişikliklərə əsasən isə, imtahanı verə bilməyənlər məktəbdə daha bir semestr ərzində işləyə biləcək və kompetensiyalarını təsdiqləmək üçün onlara yeni şans veriləcək.

Gürcüstan hökumətinin "Müəllimlərin Peşə və Karyerada İnkişafı Sxeminin təsdiqlənməsi barədə" 2019-cu ilin 23 may, 241 nömrəli sərəncamında dəyişiklik edilib və həmin dəyişikliyə əsasən, 2020-ci ilin 31 yanvarında ümumtəhsil müəssisəsində dərs deyən və 2020-ci ilin 1 fevralından 2020-ci ilin 30 aprelinə qədər müəllim imtahanına qeydiyyatdan keçmiş təcrübəçi müəllimin (qeyri-gürcüdilli ümumtəhsil müəssisəsinin/sektorun təcrübəçi müəllimindən başqa) 2021-2022-ci tədris ilinin ikinci semestri başlayana qədər müəllim statusunu yüksəltmək hüququ var".

Müəllimlərin kompetensiyasını təsdiqləyən imtahan nəticələri pedaqoqların əlavə imtahan verməsindən sonra başlayacaq.

---

Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.

Gürcü dilindən tərcümə etdi:
**Aynurə ƏLİYEVA**

# PARAQVAY PAPAQLARI



Bir zamanlar Süsən-Sünbül tərəflərdə *sənət* atalardan oğullara ötürülürdü. Məsələn, papaqçılıq sənəti. Axı bu sənət xalqın tarixi keçmişini, milli-mədəni irsini əks etdirir! Yoxsa papaqçılıq – papaq görməyə-görməyə papaqla şəkil çəkdirib, açıq başlara gözdağı vermək deyil ki! Papaq – Süsən-Sünbüldə, özü də bütün Qafqazın ən dilbər guşələrindən olan Süsən-Sünbüldə az qala ***cəmi cahan*** demək deyilmi?! Bəlkə elə bu səbəblərdən buralarda yarımçıq papaqçılar bu qədər azdır!

...Amma Papaqçıoğlu bu "estafet"ə ehtirama, bəy papaqlarına hörmətə sanki bir etinasızlıq göstərdi; nəslinin varislik ənənəsinə sədaqətsiz çıxdı. Yəni ilk baxışda görünən bunlar idi.

Doğrudur, Papaqçıoğlu atasına bir ilə qədər şagirdlik də eləmişdi, amma könlü isinməşdimi, isinməmişdimi, bax, burasını heç danışan yox idi.

Mən onların papaqçı köşkündə bir neçə dəfə olmuşdum. Papaq haqqında arxa divara yazıb vurulmuş bir neçə bənd şeir də var idi. Bəziləri yadımdadır:

*Atamın namusu, adı,*
*Babam onsuz yaşamadı.*
*Şərəf, qeyrət, ad apardı, –*
*Gedəndə də gora papaq.*

Və:

*Papaq nədir? – O bizim*
*Dostumuz, qardaşımız.*
*Sağ ikən papağımız,*
*Öləndə – başdaşımız!*

Bir dəfə uşaqlıqda Papaqçıoğlu Novruz payı üçün qonşu evə papaq atıbmış. Buna görə papaqçı atası onu bərk tənbeh edibmiş:

– Bayramda papaq atmazlar, ay oğul, – deyibmiş. – Bayramda torba atarlar, çünki papaq qeyrətdir, namusdur.

Sonralar tanış mövzuda söz düşəndə Papaqçıoğlu ilk və son dəfə atasına söz də qaytarıbmış:

– Ata, bəs hanı bizim "papaq bülbülləri"? Papaqdan namus simvolu kimi danışırlar, amma gəlib bizdən bircə papaq da almırlar? Şlyapa çıxanda şlyapadan yapışırlar, furajka çıxanda furajkadan! Silindr də elə onun kimi...

Atası xəfif hüzn qarışıq:

– Züllə papaq, qələmi papaq, buxara papaq kişilər həmişə var. Elə bilmə ki, papaq çoxdur, kişi az. Yenidən sahib çıxanlar tapılar; yenidən gələrlər, inşallah! Qoç Koroğlu demiş, ay oğul, keçər dövran, belə qalmaz. Biz tərəflərdə yerdə, ya da hərmədə qalan kişi papağı görmədim mən, – deyibmiş.

Amma Papaqçıoğlunu Süsən-Sünbüldə saxlamaq mümkün olmadı. Xalqın uşaqları çalışmaq üçün indi Türkiyəni, Polşanı seçirlər, Almaniyaya, Fransaya üstünlük verirlər. Amma Papaqçıoğlu Paraqvayı seçdi. Cənubi Amerika hara, Cənubi Qafqaz (oxu: Süsən-Sünbül) hara? Doğrudanmı dünya düşünüləndən çox-çox balacadır?

Papaqçıoğlu dünya okeanlarına, dənizlərə çıxışı olmayan ölkələrlə maraqlanırmış. Ona arada-sırada belə gəlirmiş ki, bəlkə dərin-dərin dəryalara çıxışı olmayan ölkələrin adamlarının böyüklüyə, ucalığa yetmək həvəsi daha böyük, daha israrlı ola bilər! Hətta ilk olaraq Avstriyanı seçibmiş, amma ispancadakı uğurları onu Paraqvay yoluna çıxarmışdı.

Bilirəm təsəvvür edirsiniz: o, yola çıxan gecə uzaqdan qaralan sanki papaqçı köşkü deyil, köşkün başındakı gümüşü buxara papaq qaralırmış...

İnsafla danışaq. Bizim papağı qeyrətdən yoğrulmuş Qafqazda bəzi bəzirgan əskikliklər də var. Misilləmə misal üçün, adamın məmləkətinin sərhədlərini soruşursan, dərhal dənizdən-dənizə göstərir. Yəni elə şahanə qədimlik-tarixilik xəstəliyinə tutulub ki, dərhal papağını göyə atır, yəni bu mövzuda özündən çox razıdır. Papaqçıoğlu gələn kimi soruşacağam: görüm Paraqvay tərəflərdə də belədirmi? Okeana, dənizə çıxışı olmamaq onları səhər-axşam üzmür ki? Amma çox maraq doğurur, deyilmi? Adamlarının çoxu metis, mulat, sambo olan bir məmləkətin tarixə nəzəri naqafil ola bilməzmi?

Aradan keçən illər ərzində Papaqçıoğlunun "Parana" (Paraqvayın Ana çayının-ana Suyunun adıdır) adlı kitabı və paraqvaylı yazıçı Auqusto Bastosdan tərcümələri çıxdı.

Bunu elə-belə, Papaqçıoğluna azarkeşliyinizi diqqətə alıb deyirəm. O da əgər aranızda ədəbiyyatın xətrini istəyənlər varsa...

...Nə isə, fani dünyanın işi-gərdişi belədir. Heç gözləmədiyin yerdə ortadan bir gözlənilməzlik çıxır. Günlərin bir günü Papaqçıoğluna xəbər getdi ki, başını orada islat, burada qırxdır; durma, atan xəstədir, hətta gözləri tutulmaq üzrədir. Gəl!

P.S.

Nağıllarımızda, dastanlarımızda anasınınatasının gözlərinə şəfa olaraq torpaq gətirərlər. Amma Papaqçıoğlu torpaq-filan gətirməmişdi. Gözlərimlə gördüm. Amma bir neçə papaq gətirmişdi: Paraqvay papağı!

...Atası öz ustad əllərilə papaqların tikişini, butasını yoxladı, "gül"lərini, "xal"larını sığalladı. Yoxladı və heyrətə gəldi. Əlbəttə, papaqların xəz-dərisi Paraqvaya aid olsa da tikiş oğluna məxsus idi: özü də yüzəyüz!

Yəni onun oğlu asudə vaxtlarını oralarda havayı keçirməyibmiş!

...Sizi bilmirəm, amma mən Cənubi Amerikanın ədəbiyyatını, futbolunu və tanqosunu sevirəm.

Papaqçıoğluna da oralarla bağlı o qədər sualım var ki! Təki atası yaxşı olsun!..

**İBRAHİMXƏLİL**

# BİR ÖLKƏDƏ ETİK HESAB EDİLƏN, DİGƏR ÖLKƏDƏ QEYRİ-ETİK HESAB EDİLƏ BİLƏR

"**Demokratiya və azadlıq**" məfhumları "*mənəviyyatsızlıq və anarxiya*" demək deyil. İyul ayının 3-də Tbilisi yaxınlığında bir ərazidə cinsi azlıqların keçirdikləri mərasimdə bu məfhumların bir-biri ilə tərs deyil, düz mütənasib olmasını düşünənlərə, evin içi ilə ictimai məkanda davranış qaydalarını səhv salanlara rast gəldik. Sosial şəbəkələrdə yayılan videodan görsənir ki, cinsi azlıqların (LGBTQI+) heç də hüquqları pozulmur, əksinə sərbəst və rahat şəkildə ictimai məkanda günün günorta çağında qeyri-etik hərəkətləri ilə etik davranış kodeksinə uyğun olmayan nalayiq hərəkətlərini təbliğ edirlər. Bu hadisə iyulun 3-də 5 iyul qarşıdurmasından 2 gün qabaq Tbilisi yaxınlığında baş verir. Təəssüf ki, baş verənlər üzərindən manipulyasiya edib olanları hərə öz istək və arzularına, həmçinin qidalandığı təşkilatların mənafeyinə uyğun çatdırır. "Tbilisi Prayd" təşkilatı 1-5 İyul tarixlərində "Prayd Həftəsi" keçirməyi planlaşdırır. 28 iyun tarixində Avropa Parlamentinin 28 deputatı Gürcüstanın Daxili İşlər nazirinə göndərdiyi Açıq Məktubda "Prayd Həftəsi"nin keçirilməsi üçün şəraitin yaradılmasını ***diktə edir.*** Gürcüstan Patriarxlığı isə buna cavab olaraq 29 iyun tarixində dövlətə paradın keçirilməsinə icazə verməmələri ilə bağlı, eləcə də Avropa Parlamentinə və Gürcüstanda akkreditə olunmuş diplomatik korpus nümayəndəliklərinə paradın keçirilməsinə qarşı olmaları, "Ləyaqət Marşının" ləyaqətlə heç bir əlaqəsinin olmaması, əksinə qeyri-ənənəvi həyat tərzini təbliğ etməsi, əxlaq normaları ilə ziddiyyət təşkil etməsi ilə bağlı bir neçə bəyanat ünvanlayır. Bununla belə Gürcüstan dövləti "Tbilisi Prayd" təşkilatına Tbilisinin yaxınlığında öz tədbirlərini həyata keçirmək üçün şərait yaradır. 1-4 iyul tarixlərində təşkilatçılar planlaşdırdıqları tədbirləri həyata keçirirlər. Təşkilatçılar iyulun 5-də isə "Ləyaqət Marşı" adlı paradı Tiflisin mərkəzi prospektində Rustavelidə etmək istəklərini bildirirlər. Daxili İşlər Nazirliyindən bunun riskli olması, həmçinin qarşıdurmanın qaçılmaz olması ilə bağlı xəbərdarlıq edilir və "Ləyaqət Marşı" adlı paradları onlar üçün ayrılan yerdə keçirmələri tövsiyə edilir (necə ki, 4 gün ərzində edirdilər). Kilsə də öz növbəsində 5 iyul paradının baş tutmaması üçün insanlara çağırış edir. İyulun 5-də isə mövcud vəziyyətdən iqtidar da, müxalifət də, digər qruplar da, hər biri özü üçün bəhrələnməyə çalışır və buna nail də olurlar.

Bura Qafqazdır, Qafqazda müxtəlif millətlərin nümayəndələri yaşayır. Bu xalqların hərəsinin ayrılıqda özünə uyğun mədəniyyəti olsa da, bütün qafqazlıları birləşdirən ümumi xüsusiyyətlər də var. Rusun anasını söyən bunu adi hal kimi qarşılayacaq, ancaq bir qafqazlıya qarşı ana söyüşü etsən həmin dəqiqə ən yaxşı halda başının yarılmasına əmin ola bilərsən. Necə deyərlər "Кавказ дело тонкое".

Ümumiyyətlə, ***bir ölkədə etik hesab edilən, digər ölkədə qeyri-etik hesab edilə bilər.*** Məsələn, dünyanın ən demokratik ölkəsi hesab etdiyiniz Amerikanın bəzi ştatlarında "ölüm hökmü" cəzası leqaldır, ancaq bizim, eləcə də bir çox digər mədəniyyətlərdə bu barbarlıq hesab edilir. "Həyatı bizə bəxş edən Allah həyatımızı əlimizdən ala bilər" ifadəsini tez-tez işlədirik. "Şirinlik" Avropa mədəniyyətində korrupsiya, rüşvət vermək kimi qəbul edilir, ancaq bizdə deputata paxlava verməyə normal baxırlar.

Bura Qafqazdır, bura Gürcüstandır!!! Gürcüstan Avropaya inteqrasiya yolunu seçib, bu yolda büdrədiyi və qalxdığı anlar olub. Ölkənin bir oliqarxın əlində oyuncağa çevrildiyi anları olub, seçkilərə küllü miqdarda pul xərcləyib seçkini udduğu, hakimiyyətdə olduğu vaxtlarda isə seçkilərə xərclənən pulları xalqdan birə beş zəli kimi sorub çıxardığı anları da olub. Bununla belə Avropaya doğru gedirik. ***Öz mədəniyyətimizi qoruyub, bizi biz edən dəyərləri yaşadaraq inteqrasiya olacağıq, Avropanın yaxşısını götürüb, mənəviyyatımıza zidd olanları qəbul etməyərək, qarşı tərəfi də bizim dəyərlərə hörmətlə yanaşmağa vadar edərək addımlayacağıq.*** Amsterdamda pozğunluq qanuni peşə hesab edilirsə, Gürcüstanda bu cinayət hesab edilir və Gürcüstan heç vaxt ikinci "Qırmızı fənərlər küçəsi"nə çevrilməyəcək.

Bu gün LGBT-lər Gürcüstanda təşkilat, şirkət, idman zalları və müxtəlif qurumlarda işləyirlər, göründüyü kimi iş yerlərində, ictimai yerlərdə "evlərinin içində etdikləri nalayiq hərəkətləri" nümayiş etdirməyəndə onlara dəyib toxunmurlar. İctimai məkanlarda, cəmiyyətdə özünü aparmağın öz qayda-qanunları var. Anadangəlmə və ya sonradan qazanılmış olmuş fərq etmir, sosial şəbəkədə yayılan videoda etdikləri xəstə hərəkətləri Rustaveli prospektində, insanların sıx olduğu yerlərdə, ictimai yerdə etmək istəklərini bizim cəmiyyət, çoxmillətli Gürcüstan heç vaxt qəbul etməyəcək.

Cinsi azlıqların ***parad keçirməsinin əleyhinə olanlar*** bir çox LGBT-lərin ictimai yerlərdə əxlaqsızlıq etmələrindən ehtiyatlanan, bunun təbliğat nəticəsində kütləvi hal alacağından çəkinən, öz övladlarını, əzizlərini qorumağa çalışan insanlardır. Mənim üçün hələlik iki "Şərəf" və "Ləyaqət" paradı var: 9 May – Qələbə Günü və 8 Noyabr – Zəfər Paradı. Üçüncü belə bir paradı Abxaziya və Cənubi Osetiya azad ediləndə qeyd edəcəm.

Gürcüstana heç olmasa bir dəfə səyahət edənlərdən belə tez-tez "avtobus, marşrutka sürücülərinin kilsənin yanından keçəndə necə xaç çəkdiklərini gördük" deyə təəccüblə işlətdiyi ifadələri eşidirik. Gürcüstan bəlkə də dünyada ən inanclı ölkələr sırasındadır.

Xristian və İslam dinlərində homoseksuallığın qəbul edilmədiyi, bunun haram və iyrənc hərəkət olması barədə yazmaq istəmirəm, bu barədə din xadimləri fikirlərini əsaslandırıb danışsa daha münasib olar. ***Ancaq gündə 5 dəfə namaz qılıb, hər gün müqəddəs kitab oxuyan bizim "ictimai fəallar"ın düşüncələri ilə hərəkətləri arasında 180 dərəcə dəyişiklikyi görüb***, bu insanların dayanmadan hay-şüvən qoparıb ***LGBT hüquq müdafiəçisinə, vəkilinə, elçisinə, xoşməramlı səfirinə*** necə çevrilməsinin müzakirəsini sizin ixtiyarınıza buraxıram.



Bu gün Amerikada cinsi azlıqların sayı 18 milyondan çoxdur və seçkilər ərəfəsində ən çox istifadə edilən qrupdur. Gürcüstanın əhalisi isə 3 milyon 700 mindir. Nəyisə təbliğ edəndə, kimlərinsə elçilərinə çevriləndə az da olsa burnunuzun ucundan bir az o tərəfi görməyi də bacarın.

P.S.

Bu il Marneuli Təhsil Resurs Mərkəzinə təzə direktor təyin ediləndə həmin şəxsin bir neçə il bundan qabaq bir məktəbdə direktor olduğu müddətdə qeyri-etik hərəkət etdiyi üçün təzə təyin edildiyi işdən çıxarılması tələb edildi. Hadisənin bir neçə il bundan qabaq baş verməsinə baxmayaraq etirazlar bu şəxsin direktorluğu müddətində deyil, bu il yeni bir işə təyin edildiyi vaxtlarda başladı. Həmin direktorun çıxarılmasını tələb edənlər bu gün ictimai məkanda nalayiq, qeyri-etik hərəkət edən cinsi azlıqların müdafiəçisinə çevrilib. Obyektivliyinizi sona kimi saxlamağa nə mane olur?

**Aygül İSAYEVA**
İqtisadiyyat üzrə fəlsəfə doktoru

# İOSİF QRİŞAŞVİLİNİN “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” ƏSƏRİNDƏN BİR PARÇA

## ANTON QANCİSKARELİ



*(əvvəli ötən sayda)*

Xalqın oyanmasına kəskin şəraitlər, inzibati nəzarət və ciddi senzura səbəb olmuşdur. Yuxarıda sadalanan sənətkar şairlərdən bir neçəsini tutdular, bir neçəsini sürgün etdilər. Çoxları “əllərini üzdü”. Çoxlarına “barmaq silkələnildi”. Ya sakitlik, ya da eyhamlı yazmaq lazım gəldi. Bu baxımdan fəhlə-şair Anton Qanciskareli heyranedici virtuozluq göstərir.

Nümunə olaraq bir şeiri gətirəcəyəm ki, burada da çarizmin əsarəti altında inləyən və əzilən zəhmətkeşin əhval-ruhiyyəsi dolayısı ilə ifadə olunur:

***“Sən kişisən, yenə də kişi,***
***Adəmin törəməsi;***
***Məgər sənin qəlbinə çatmır***
***Məzlum xalqın iniltisi?***
***Borclusan, pisin yerinə***
***İşi daha yaxşı qurmalısan***
***Və bu işlə işıqlandırmalı***
***Həyatda indi əl uzadanı.***
***Bununçün sənə xeyir-dua verdim,***
***Nəhəng qəhrəmanın dəmir dəyənəyi,***
***Yuxarıda Allah kömək olsun,***
***Yerdə hökmdar, onun taxtı!***
******
***Sən kişisən var bədəninlə,***
***Bir bax, qardaşlıq arenasına, –***
***Görəcəksən öz qardaşlarını***
***Necə içirlər, zəhəri-acılığı;***
***Kim ərk etdi içməməyi,***
***Pis həyatı zəhərlədilər,***
***Əzab-işgəncə ilə kifayətlənmədilər!***
***Bir qəhrəman kimi bunu etməlisən,***
***Zalimin üstünə atıl; –***
***Yuxarıda Allah kömək olsun,***
***Yerdə hökmdar, onun taxtı!***
******
***Sən kişisən, bir qayda olaraq,***
***Bütün qardaşlar sənə baxır;***
***Niyə görmürsən damarlarından***
***Qanı kim sorur, necə zəli?***
***Kişi yerinə də qoymurlar,***
***Sanki olasan qarışqa.***
***Niyə susursan, zəhmət oğlu,***
***Artıq işıqlanır, daha qaranlıq deyil;***
***Bu gün heç nəyini əskik etməz***
***Gümüş xaç, qızıl ikona,***
***Yuxarıda Allah kömək olsun,***
***Yerdə hökmdar, onun taxtı!”***
******
***Sən də kişisən, qeyd etmək lazım***
***Və sən də kişilərə bənzədin,***
***Öz tərinə, müsibətinə***
***Layiqincə dəyər ver.***
***Zehni işə, təhsilə***
***Əl uzat, min elə,***
***Onda tale üzünə gülər...***
***Belə lazımdır, qardaşım, belə,***
***Və mən də onun üçün həsr etdim,***
***Bu cür qalxan-qılınc-dəmir dəyənəyi.***
***Yuxarıda Allah kömək olsun,***
***Yerdə hökmdar, onun taxtı!”***

Bu deyim parlaq poetik vasitədir ki, bunun da vasitəsi ilə son sətirlərdə xeyir-dua olaraq siyasi şüar həddən artıq ustalıqla əhatə olunub:

***Yuxarıda Allah kömək olsun,***
***Yerdə hökmdar, onun taxtı!”***

Əgər Anton Qanciskareli bu mövzuda bir şeirlə yola gedirsə, İzidzeyə öz fikrini ifadə etmək üçün daha mürəkkəb kombinasiya lazımdır. O üst-üstə poemalar – “Məhəbbətin gücü”, “Xalqın qəhrəmanı”, “Daşqıran” poemalarını çap etdirir. İzidze gürcü xalqının istəklərinin əfsanəvi formasını vermiş və hadisəni Yaponiyaya addatmışdır (“Daşqıran”). Odur ki, İzidze təşviqat inqilabi şüarları yoğurmuş və senzuranın icazəsi ilə camaat arasına tolazlamışdır:

***“Çar istəyir xalqı özünə qul, ölkəni də idarə etsin,***
***Duyğu, məhəbbət isə, ona uyğun gəlmir hökmranlıq.***
***Çara nifrət, rədd olsun hökmdar, qoy dağılsın taxtı onun;***
***Belə çarı neyləyirik, öz millətini sevməyən çarı”*** *(İzidze (İoseb İmedaşvili), “Məhəbbətin gücü”, 1903-cü il, səh. 9. Bu poema doqquz yüzüncü illərdə əlyazma şəklində yayılırdı. İmedaşvili eləcə də 1904-5-ci illərdə “İveriya” ilə əməkdaşlıq edirdi (“Şurdulinin” şöbəsində, buna da İya Eradze – Sof. Mqaloblişvili redaktorluq edirdi) və K.Tumanişvilinin 1909-cu ilin “İveriya”sında (“Tskipurtun” şöbəsində, Piruz Tskipurtadzenin redaktorluğu ilə) məqalələrinə Usuf-Umut oğlu yazırdı, şeirlərinə – İzidze).*

Bu üsul ilə yazmaq odövrkü senzuranın gözündən pərdə asmaq üçün inqilabi şairlərin fəndi idi. Eyhamla və cinaslı sözlərlə ifadə olunan şeirlərə Akaki Sereteli də hörmətlə yanaşırdı. Rusiya-Yaponiya müharibəsi zamanı bizim şairin rəğbəti Yaponiyanın tərəfində idi. Və, bax, Akaki bir şeir (“Quriya laylası”) yazdı ki, burada ana öz uşağına oxuyur və hər dəfə öz laylasını belə bitirir: “Oy, bunun qadasın alım!” (Burada yapon marşalı Oyama nəzərdə tutulur). Bu şeirdə cinas gözəl yonulub rəndələnmişdir.

***“O olan şey daha yoxdur,***
***Dəyişəcək bu gün, sabah,***
***Yol ayrılmış şəkildə bizə rast gələcək, –***
***Oy, bunun qadasın alım!***

***Başqa cür layla deyəcəm,***
***Damla-damla öyrən.***
***Xilaskara xilas etdiyini öyrəşdir, –***
***Oy, bunun qadasın alım!***

***Lakin hələ ki, beşikdəsən,***
***Tezliklə, tezliklə böyüyəcəksən, –***
***Sənin uşaqlarına sən də söylə:***
***Oy, bunun qadasın alım!”*** *(“İveriya”, 1905-ci il, № 59).*

Eyhamla yazmağa gürcü şairləri odövrkü senzura öyrəşdirdi. Elə bu səbəbdən çoxlu yazıçı təxəllüsə büründü.

Bu ümumi taledən fəhlə şairlər də yan ötə bilmirdilər: Lazare Maisuradze “L. Sənətkar”, M.Lelaşvili “Çılğın” adlandı, “Noşrevanidze” Noşrevan Merkviladzenin, “Ninotsmindeli” Datiko Rostomaşvilinin təxəllüsü idi. Qordadze öz həqiqi soyadını “Abuladze”, G.Çarxişvili “Qauçinarda” (“Yoxa çəkildi”) (“Uçinaradze” təxəllüsü) etdi. Bəzən Anton Qanciskareli də təxəllüsünü dəyişirdi (Məsələn: “Abdulla Zabuxal-oğlu”) və sair.

Məgər senzuranın günahı deyildimi ki, bizim xadimlər özlərinin artıq görkəmli adlarından çəkinirdilər və min cür qəribə təxəllüslərlə bürünürdülər?! *(Məsələn, İlya Cavcavadze: M.Cimşeridze, Cibreil, Axalmosuli, Piruza, Laridze; Kirile Lordkipanidze: Toma Karqareteli; Qr. Orbeliani: Ksnisxeveli (Qeyd etmək lazımdır ki, “Fəhlə Bokuladze ilk dəfə bu təxəllüslə dərc olunmuşdur. Bax: “İveriya”, 1877-ci il, № 7); M.Z.Kipiani: Spiridon Çitorelidze; St. Crelaşvili: Sano, Tatala; Yakob Mansvetaşvili: Don-Yaqo; D.Kezeli: David Soslani, Zoili; G.Sereteli: Terek içənlər, Qoriseli, Mazakvali; G.Lasxişvili: Lali, Esikelah Kvaçantiradze; N.Lordkipanidze: Tanimelo; G.Kikodze: V.Leliani və sair).*

Bu təxəllüslər müəllifə bir növ yardım etmiş olurdusa, əvəzində gələcək nəsillər üçün bu və ya digər yazıçının təxəllüsünü çox hallarda aydınlaşdırmaq lazım idi *(Arçil Corcadze təxəllüsləri tədqiq edərkən yazır: “Terek içənlərin kimliyini anlaya bilmədim” (Bax: V cild, səh. 79). Sv. Xundadze də söyləyir: “İmedi” jurnalının əməkdaşlarının bəzi təxəllüsünün izahı çətindir. Burada bizə Tatala, Aradeli və sair rast gəlir. Bu təxəllüslərlə kimin yazdığını anlaya bilmədim”(Bax: “Gürcüstanda sosializmin tarixi”, II cild, səh. 61).*

Bu zəmində kuriyozlar da yer alırdı!

Məgər senzura şəraiti İlya Cavcavadzeni məcbur etmədimi ki, öz “xoşbəxt millətini” italyan yazıçısı Custa məxsus etdi? Bu “italyan yazıçısı” rus şairi Yakuboviç tərəfindən uydurulmuş irlandiyalı şair Dekonin və italyan Çezare Nikolin kimi mövcud deyildi (П.Якубович (Л.Мелшин), “Стихи” II cild, 1906-ci il, səh. 3). Lakin hər halda bu yazıçı bir neçə il ərzində öz şeirlərini bu şairlərdən “tərcümə” adlandırırdı. Halbuki Gürcüstanda təxəllüslərin çoxluğu həmişə senzura şəraiti ilə izah olunmur. Gürcü dövri nəşrinin durumu elə idi ki, çox hallarda nömrənin doldurulmasına bir və ya iki daimi əməkdaş lazım gəlirdi. Oxucunun marağının oyadılması üçün qəzetin əməkdaşları müxtəlif xarakterli yazıları müxtəlif təxəllüslərlə yerləşdirirdilər. Məsələn: P.Maxaradze bu təxəllüslərlə yazırdı: Söhbətcil, M.Monidze, Qalxan, Əyalətli və sair. Arçil Cacanidzenin 16 təxəllüsü var idi (İztirablı, G.Bareli, Şinauri, Qardeli və sair). Tedo Ğlontinin təxəllüsləri Möhkəm, Bərk, Məsim və sair idi. K.Tumanişvilinin – “Грузин, Обыватель, Гражданин, Свой” və sair idi.

Rusiyada tamamilə günahsız sətirlər belə senzuranın mənfi ştampından yan ötə bilmirdi. Məsələn,

| Əsərdə yazılıb: | Senzura söyləyirdi: |
|---|---|
| ***Sənin ilahi gülüşünü<br>Mənə kim layiq görəcək?*** | ***Qadın tamamilə onun layiqi deyil ki,<br>gülüşünü ilahi adlandıralar.*** |
| ***Sən anladın, ruhum,<br>Mənim ruhumun titrəyişini.*** | ***Qadağan olunsun, çünki<br>ruhdan gedir söhbət.*** |
| ***Sənin yanında istəyirəm<br>Səfa çəkməyi öyrənəm.*** | ***Qadağan olunsun, çünki səfa çəkməyi<br>qadının yaxınlığından deyil,<br>İncildən öyrənilir*** |

*(Мих. Лемке «Николаевские жандармы»,1909-cu il, səh. 226).*

Senzuranın qələmi və ya İ.Davitaşvilinin adlandırdığı kimi: “Xanım qırmızı –mürəkkəb” çox hallarda gürcü şairlərinin şeirlərini də eybəcərləşdirirdi (Bu baxımdan çoxlarının gülməli kuriyozları da yer almışdı. Bu mövzu ayrıca monoqrafiyanı tələb edir. Hazırda bu bizi maraqlandırmır. Deyəcəyik ki, odövrkü gürcü senzorları arasında (Eprem Aleksi-Mesxişvili, Pl. İoseliani, Dim. Bakradze, Luka İsarlov, Raf. Eristavi, P. Qotua, P.Mirianişvili, Sarqis Kakabadze, İv. Polumordvinov və sair) ən çox gülməli əhvalatlar Luka İsarlovun ətrafında mövcuddur. Bu yazıçıya çox hallarda redaksiyalar da çəkinmədən yanaşırdılar. Məsələn: “İmedi” jurnalı bəyan edirdi: “Bu nömrə üçün yığılmış məqaləni senzor Luka İsarlov daimi olaraq həbs etmişdir” *(Bax: “İmedi”, 1882-ci il, № 2).*

Bir dəfə bu Luka İsarlov Akakinin bir şeirini (“İtiləyirəm, itiləyirəm, ey oraq”) buraxmamışdır. Akaki bu şeiri Potidə buraxmış və altından da öz soyadı əvəzinə Luka İsarlov yazmışdır!

*(ardı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# DOSTLUĞUN QALİBİYYƏTİ VƏ MƏĞLUBİYYƏTİ



Cəmiyyətimizdəki bir çox dostluq əlaqəsinin istismar, zəiflik, səmimiyyətsizlik üzərində qurulduğunu müşahidə etmək mümkündür. Məsələn, ailə başçısının, cəmiyyətin (qrupun, yaxud da kollektivin) digər kişi fərdləri ilə dostluğunu götürək, bu dostluq əlaqəsini daha yaxşı aydınlaşdırmaq üçün bir az təfərrüatlara yönəlmək lazımdır, qeyd etmək lazımdır ki, hamının dostluğa və dostluq əlaqələrinə ehtiyacı var.

Düşünün heç bir dostunuz yoxdur... Özünüzdən başqa... Yəqin ki, Daniel Defonun "Robinzon Kruzo" romanındakı Robinzon Kruzo surətindən çox da fərqiniz olmazdı. Hətta maddi cəhətdən özünüzü təmin etsəniz belə, bu, sizin üçün çətin ola bilərdi. Tom Henksin "Didərgin" (Cast Away) filmində bu vəziyyətin ən keyfiyyətli surətdə canlandığını görə bilərik.

Bu filmdə Tom Henks quru və hava yolları üzərindən xidmət göstərən adını çəkməyi lazım bilmədiyim bir nəqliyyat şirkətinin əməkdaşı rolunda çıxış edir. Səyahətə çıxdıqları təyyarə qəzaya düşür. Şirkətin təyyarədəki bütün əməkdaşları həlak olur, yalnız bir nəfər sağ qalır. O bir nəfər illər boyu adada sağ qalır, maddi cəhətdən özünü təmin edə bilir yalnızlığın gətirdiyi çarəsizlik hissi ilə, voleybol topuna qaş-göz, ağız-burun cızıb onunla ünsiyyət yaratmaq istəyir.

Ailə başçısı da özü üçün dostlar seçir. Çünki bu, ona yaşaması, özünə yer tutması və digər mühüm səbəblər üçün lazımdır. Bu dostluq əlaqəsindəki digər mənfi göstəriciləri hələlik bir kənara qoyub, ***istismar*** barədə qısa bir misal çəkmək istəyirəm: Bu yaxınlarda mənimlə eyni mühitdə yaşayan bir atanın oğluna belə bir nəsihət etdiyini eşitdim, nəsihətin məzmunu belə idi: *Səndən böyükləri səni nəyə buyursalar yerinə yetir, hətta mənimlə düşmənçiliyi olsa belə!*

Bu nəsihət əslində əla sayıla bilər. Ancaq yarımçıq deyilib. Çünki həmin ata övladına kimin buyruğuna baxmalı və kimin buyruğuna baxmamalı olduğunu da izah etməli idi. Məsələn, əli-ayağı sağlam, olduqca gümrah bir kimsə azyaşlını xudbincəsinə buyurur ki, getsin ona siqaret alsın, yaxud içki alsın, yaxud da nəsə alsın. Qeyd etdiyim kimi, azyaşlını necə buyurmaq lazımdır onu da bilmir. Xudbincəsinə, azyaşlının ruhunu incidəcək şəkildə buyurur. Yeri gələndə isə Allah-Təalanın insana verdiyi ayaqdan, qulaqdan, barmaqdan danışır. Amma əlini-ayağını işlədib öz işini özü görmək istəmir. Bunu azyaşlı hiss edir, sınır, etiraz edə bilmir, qəlbinə atır. Bu və bu kimi qeyri-sağlam rəftarların nəticəsində azyaşlının şəxsiyyətinin formalaşması gecikir, bəzən də heç formalaşmır. Gələcək üçün özünü ifadə etməkdə çətinlik çəkən, yeri gələndə, birgə iş gördüyü insanları, xalq demişkən, düzdə qoyan, bəzi hallarda "yaxşı oğlanların" yanında suyulan, dostunu və dostluğunu beşqəpiklik edən qeyri-sağlam fərdlər əmələ gəlir.

Bu barədə çox danışmaq istəmirəm. Nəticədə, yenə xalq demişkən "ilanın başı körpə ikən əzilir", gələcəyin mükəmməl dostluqları məhz gücsüz vaxtında məğlub edilir.

İndi isə sizə bir əhvalat danışmaq istəyirəm. Türkiyəli psixoloq Güngör Özyiğit "Ünsiyyətin üç ölçüsü" kitabında bu əhvalatı təsirli şəkildə qeyd edir (Bu əhvalatı mən də həmin kitabdan oxuduğuma əsasən nəql edəcəm): Bir televiziya kanalında üç məşhur tenorun (tenor, ən zil kişi səsi) konsertini dinlədiyini, bu konserti dinləyərkən ruhən uzun illər əvvələ qayıtdığını, təsirlənib-ağladığını yazır.

Konserti hindli dirijor Zubin Mehta idarə edir. Üç məşhur tenor: Lusiano Pavarotti, Plasido Dominqo, Xose Karreras isə səhnədə musiqi ifa edir.

Bu konserti X.Karrerasın xərçəng xəstəliyindən xilas olmasının verdiyi sevinc hissi ilə ona dəstək məqsədi ilə təşkil etmişdilər.

İspaniyada madridlilər və katalanlar arasında münaqişə və rəqabət olduğu bilinir.

Katalanlar İspaniya hökümətindən muxtariyyət tələb edir, bunun uğrunda rəqabət aparır, Madridin təsirindən azad olmaq istəyirdilər.

P.Dominqo madridlidir, X.Karreras isə katalan. 1984-cü ildə iki xalq arasında baş verən siyasi münaqişə Dominqo və Karrerası da bir-birindən uzaqlaşdırır. Olduqca bəyənilən və dünya üzrə tanınan sənətkar olduqlarından hər ikisi də öz şəhadətnamələrində yalnız digərinin çağırılmadığı halda musiqi ifa edəcəklərini qəti şəkildə bildirirlər.

Bədbəxt bir hadisə baş verir. Karreras Dominqodan daha rəhmsiz düşmənlə qarşılaşır: qan xərçəngi diaqnozu ilə ruhən yıxılır. Sonra xərçəng xəstəliyi ilə mübarizəyə başlayır. Bir çox həkimə müraciət edir. Hər çarəyə baş çəkir. Sümük iliyi və qan köçürülməsi əməliyyatları tətbiq olunur. Bu müalicələr üçün ayda bir dəfə Amerikaya getməli olur. Bu şərtlər ucbatından sevimli peşəsində olduqca ləngiyir. Yola və müalicəyə çəkdiyi xərclər səbəbindən maddi vəziyyəti sarsılır.

Pulunun tükəndiyi vaxt ilahi bir əl ona doğru uzanır. Xəbər tutur ki, Madrid şəhərində məqsədi qan xərçəngi xəstələri üçün maddi dəstək olan bir vəqf xidmət göstərir. "HERMOSA VƏQFİ"nin maddi dəstəyi onun bu xəstəlikdən xilas olmağına kömək edir. Yenidən səhnələrə qayıdır. Ulduzu yenidən parıldayır. Qərara gəlir ki, həyatını borclu olduğu vəqfə o da üzv olsun.

Vəqfin qayda-qanunları ilə tanış olarkən öyrənir ki, həmin vəqfin qurucusu və sədri Dominqo imiş. Daha sonra isə Dominqonun bu vəqfi ələlxüsus onun müalicəsi üçün qurduğunu, ancaq Karrerasın öz düşməninin köməyindən imtina edəcəyi ehtimalını nəzərə alaraq adını gizli saxladığını öyrənir. Bundan sonra bu iki sənətkarın birgə çıxışları duyğu yüklü bir teatr səhnəsi təəssüratı yaradır. Dominqonun Madriddəki konsertlərindən birində Karreras konserti dayandırıb təvazökar şəkildə diz çöküb, həyatını borclu olduğu rəqibinə təşəkkür edir. Dominqo onun əlindən tutub qalxmasına kömək edir və öz sənətkar dostunu bağrına basır.

Həmin gün izləyicilərin gözü qarşısında daha böyük bir dostluğun bünövrəsi qoyulur. Və yenə Güngör Özyiğit demişkən, dostluq düşmənliyə qələbə çalır.

Bir cəmiyyət olaraq bizim də dostluğun qələbəsinə ehtiyacımız var. Bunun üçün hamımız nümunə olmağa borcluyuq. Çünki qələbə bizim qələbəmiz olacaq.

**Vüqar VƏKİLOĞLU**
*şair*

# SIFIR GÖZLƏNTİ

Bəzən uşaqlığım yadıma düşür, heç vaxt reallaşmayacaq, ağlasığmaz istəklərim... Uşaq vaxtı çox istəyirdim ki, qeyri-adi güclərim olsun, xüsusən də zamanda yolçuluq etməyi çox istəyirdim.

Uşaq vaxtı dostlarla söhbət edəndə gələcəkdə uçan maşınların olacağından, dünyanın daha inkişaf etmiş, daha yaxşı bir yer olacağından, müharibənin olmayacağından, insanların sülh içində yaşayacağından danışardıq. Bir-birimizə suallar verərdik ki, görəsən gələcəkdə dünya necə bir yer olacaq? Mən də həmişə cavab verərdim ki, kaş gələcəyi görmək üçün xüsusi gücüm olaydı. Sanki gələcəkdə məni gözləyən möhtəşəm nələrsə var idi, sanki nələrisə vaxtından əvvəl görsəm içim rahatlayacaq və ya nəyisə vaxtından əvvəl bilsəm onu dəyişdirə bilməcəyimi düşünürdüm.

Yəqin ki, uşaqlığında seriala baxmayan insan olmayıb. Xüsusən də sehrlə və ya xüsusi güclə əlaqədar seriallara. Özünü baş rol qəhrəmanının yerində hiss etməyən, kaşğa mən də onun kimi sehrli olaydım deməyən çox az uşaq olub məncə. Mənim ağlasığmaz istəklərimin mənbəyi də elə onlar idi deyəsən.

Dediyim kimi, mən daha çox zamanda yolçuluqla maraqlanırdım. Böyüdükcə belə bir şeyin – sehr, qeyri-adi güc deyə bir şeyin olmadığını başa düşürdüm. Ancaq buna baxmayaraq, qəlbimin dərinliyində bunların bir yolunun ola biləcəyinə inanırdım. Çox keçmədən bu yolun kitablar olduğu qərarına gəldim. Hər kitab bir hekayə, bir həyat, bir pəncərə, bir xüsusi güc imiş, sən demə. Uşaqlıqdan axtardığım zamanda yolçuluğu kitablarla edə biləcəyimi gördüm. Əlbəttə, oxuduğum bütün kitablar haqqında burada bir-bir danışmaq imkanım yoxdur, sadəcə mövzunu daha yaxşı izah edə biləcəyini düşündüyüm bir kitabdan misallar gətirəcəm. Məsələn, türk yazıçısı Tunç Kılınçın "Sıfır" kitabından. Oxuduqca kitabın içində itirdim və axtardığımın bu olduğu qərarına gəlirdim.

*"Yalnız bir dəqiqə! Atmosferdəki bu seyrəklik nədir? Ozon dəliyimi? Qütblərdəki buzlaqlar, meşələr... Hamısı nə qədər azalıb. Mənzərəni yaxınlaşdırdıqca heyrətlənirəm. Dünya necə bu qədər pisləşib və mənim bundan necə xəbərim olmayıb?"*

Bu abzası oxuduqdan sonra boğazım düyünləndi. Həqiqətlər bu qədərmi ağırdır? Dünya həqiqətən də bu qədər pis vəziyyətdədirmi?

Oxumağa davam etdim: *"Gəl, mən səni çox uzağa deyil, sadəcə 2050-ci ilə aparım".*

Zamanda yolçuluq etmək istəyim gerçəkləşirdi deyəsən. Bəs mən bu həqiqətlər, görəcəklərim üçün hazır idimmi? Dərindən bir nəfəs aldım və davam etdim:

*"İnsanlar astma, vərəm və yeni yayılan viruslarla mübarizə aparır. Az bir baş ağrısı olduqda antibiotik qəbul edənlərə artıq dərmanların da xeyiri dəymir. Xəstəliklər işıq sürətilə yaranır və işıq sürətilə yayılır".*

Bu cümləli oxuyana qədər bəlkə də özümü bu qədər kitabın təsirinə salmamalıyam deyə, kitabda yazılan hər şey real olacaq deyə bir şey yoxdur deyə düşünürdüm. Ancaq günümüzün reallığı və pandemiya şərtləri gəldi ağlıma.

Boğazım qurumuş halda oxumağa davam edirdim. Sanki kitab məni özünə əsir götürmüşdü. Bilmirəm, bəlkə də səbəb reallığı bu qədər gözəl əks etdirməsi idi.

*"Yağış meşələri azalıb. Göllər və çayların çoxu quruyub. Biz suyun hakim olduğu bir dünyayıq, bu qədər quraqlıq necə mümkündür? Lakin digər tərəfdən sel daşqınları, böyük qasırğaların, elektrik enerjisinin kəsilmələrinin şahidi oluram... Və böyük meşə yanğınları görürəm... bu necə bir mənzərədir? Bunları dərhal dünyaya göstərməliyik!"*

Özümü kitabın təsirinə o qədər salmışdım ki, bir an oradakı mənəmmiş kimi, kaş dünyadakılara bunları görstərə bilsəm deyə düşündüm. Sonra axı mən elə o dünyada yaşayıram dedim. Həm də 2050-ci ildə yox, məhz 2021-ci ildə. Dünya üçün hələ də gec olmayan, dünyanın 2050-ci ildə bu hala gəlməməsi üçün nələrisə etməyin mümkün olduğu bir ildə.

*"Səncə bunu göstərmək lazım gəlirmi? Təbiət elə də illərdir bunu öz metodları ilə deyir. Ayrıca, yalnız bunlar deyil. İstehsal olunan içməli su və qida miqdarı artıq dünya əhalisinə kifayət etmir. Diqqətlə baxsanız kənd təsərrüfatının nə qədər azaldığını da anlayacaqsınız. Bu səbəbdən buğda, düyü və qarğıdalının qiymətləri sürətlə artır. Dünya ac, susuz uşaqlar və bunun ucbatından ölən milyonlarla insanla doludur".*

Dəhşətlə kitaba baxıram. Çıxış yolu nədir? Necə düzəltmək olar? Kim necə düzəltməlidir? Ağlıma gələn düşüncələri, çıxış yollarını hara çevirsəm də oxlar yenə də bizə, insanlara tuş gəlirdi. Digər tərəfdən kitab sualların cavabını da özü verirdi.

*"Ozon qatındakı deşiyi necə bərpa edəcəyinizi bilmirsiniz. Nəsli kəsilmiş heyvanları necə geri qaytaracağınızı bilmirsiniz. İndi yerlərində böyük çöllər olan meşələri necə geri qaytaracağınızı da bilmirsiniz. Əgər necə bərpa edəcəyinizi bilmirsinizsə, xahiş edirəm, məhv etməyi də dayandırın!"*

Bəli, çıxış yolu, həll yolu bizik. Biz insanlar. Düzəldə bilmiriksə, ən azından məhv etməyək. Ancaq biz insanların bunu nə qədər edəcəyindən əmin deyiləm. Hər kəsin şəxsi marağı, öz hirsi gözlərini bürüyüb. Bəlkə də Tunç Kılınçın kitabın adını "Sıfır" qoyma səbəbi elə insanlara qarşı olan gözləntilərinin SIFIR olmasıdır.

**Ayhan HƏSƏNOV**
*Tbilisi Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "იენი იოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 İYUL 2021-Cİ İL №014 (137)

## ALİ TƏHSİLİ OLAN HƏR KƏS MÜƏLLİM OLA BİLƏRMİ?



Məktəbdə işləmək istəyirsiniz, ancaq sertifikatınız yoxdursa nə etməlisiniz? – Müəllim peşəsinə yiyələnmək üçün bir neçə yol mövcuddur.

Əgər ixtisasınız diplomda müəllim qeyd edilibsə məktəbdə işləmək üçün qısa yol tədris etmək istədiyiniz fənn imtahanını verməkdir. Əgər fərqli ixtisasa maliksinizsə və müəllim statusunuzun olduğunu gec öyrənibsinizsə, bu da mane olacaq faktor deyil. Siz müəllim imtahanı verə bilərsiniz, sonra isə universitetdə 60 kreditlik müəllimlər üçün hazırlıq proqramında bir il təhsil ala bilərsiniz. Proqramı başa vurduqdan sonra da sizə məktəbdə işləyən kimi baş müəllim statusu verəcəklər.

Müəllim imtahanını verməyibsiniz, ixtisasca pedaqoq da deyilsiniz, ancaq məktəbdə işləmək istəyirsiniz? Belə halda www.teacherjobs.ge veb-səhifəsində qeydiyyatdan keçərək bəxtinizi sınaya bilərsiniz. Qeyd olunan saytda pedaqoqlar üçün nəzərdə tutulmuş vakansiyalar yerləşdirilir. Əgər məktəb kompetensiyalı, sertifikatı olan müəllim seçmirsə, direktorun məktəbdə işlə təmin olunduqdan sonra "axtaran" proqramına qoşulacaq müəllim olmaq istəyən şəxsi işlə təmin etmək hüququ var. Həmin şəxsin bakalavr diplomu olmalıdır və "axtaran" kursunu keçməklə yanaşı iki il müddətində müəllimlərin sertifikat imtahanını verməlidir. Əks halda işlə təmin olunduqdan iki il sonra müqaviləsi ləğv olunacaq.

Müəllim olmaq istəyənin mütləq ali təhsili təsdiq edən sənədi – bakalavr diplomu olmalıdır.

## BAŞQA DÖVLƏTLƏRİN BAYRAQLARINA ZƏRƏR VURANLAR CƏRİMƏLƏNƏCƏKLƏR



Gürcüstanda dövlət qurumları yaxınlığında yerləşən Avropa İttifaqı (Aİ), beynəlxalq təşkilatlar və ölkənin diplomatik münasibətləri olduğu dövlətlərin bayraqlarına zərər vuran şəxslərə qarşı cərimə tətbiq ediləcək. Bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklər hazırlanıb.

Qanun layihəsinin ilkin versiyasına əsasən, bayrağı zədələyən şəxs 1000 lari həcmində cərimə olunacaq. Eyni şəxs həmin hərəkəti təkrarlayarsa, hakimin qərarı ilə inzibati qaydada həbs oluna bilər.

Qeyd edək ki, iyulun əvvəlində LGBT əleyhdarlarının Tbilisidə törətdikləri iğtişaşlar zamanı Gürcüstan parlamentinin binası önündə dalğalanan Aİ bayrağı iki dəfə təhqir olunub. Bu fakt Aİ-nin Gürcüstandakı nümayəndəliyi və İttifaqa üzv 24 ölkənin səfirliklərinin birgə bəyanatında təəssüflə və xüsusi narahatlıqla vurğulanıb.

## 16 YAŞDAN 18 YAŞA QƏDƏR OLAN ŞƏXSLƏR VALİDEYN, YAXUD QƏYYUMUN RAZILIĞI OLMADAN "PFİZER" PEYVƏNDİ VURDURA BİLMƏYƏCƏKLƏR




Səhiyyə nazirinin müavini Tamar Qabuniyanın sözlərinə görə, 16 yaşdan 18 yaşa qədər olan şəxslərin "Pfizer"-lə peyvənd olunması üçün valideynin, yaxud qəyyumun icazəsi lazım olacaq. O, bu barədə jurnalistlərlə söhbəti zamanı bildirib.

"16 yaşdan 18 yaşa qədər olanlara tibbi müdaxilə üçün vətəndaşın məlumatlı razılığı lazım olacaq. Biz vaksin vurulana qədər məlumatlı şəkildə razılığı başqa vətəndaşlardan da alırıq. Bu standart prosedurun bir qismi olacaq. Həmin şəxslərə peyvənd vurmaq üçün mütləq valideynin, yaxud qəyyumun razılığı lazım olacaq", -deyə T.Qabunia qeyd edib.

## MƏKTƏB HƏKİMLƏRİNİN ƏMƏKHAQQI NƏ QƏDƏR OLACAQ?



İctimai məktəb ərazisində olan tibb kabinetində işləyən hər bir ştatdankənar xidmətçinin əməkhaqqı üçün əlavə olaraq 470 lari ayrılacaq.

İctimai məktəb ərazisində tibb kabinetinin fəaliyyət göstərməsi məqsədi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən seçilmiş ictimai məktəblərə, həmin sərəncamla nəzərdə tutulmuş maliyyələşdirmədən əlavə nazirin fərdi inzibati-hüquqi aktla təyin etdiyi qaydaya görə, hər ay ictimai məktəb ərazisindəki tibb kabinetində işlə təmin edilmiş hər hansı ştatdankənar xidmətçinin əməkhaqqı üçün 470 lari və "Yığım pensiyası barədə" Gürcüstan qanununun 3-cü maddəsinin 6-cı bəndinin "a" altbəndi ilə nəzərdə tutulmuş pensiya gəlirləri üçün işçiyə veriləcək yığım maaşının 2 faizi dəyərində maliyyə ayrılacaq.

## PARLAMENTDƏ "OV", "YEV" SOYAD SONLUQLARININ DƏYİŞDİRİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNUB



26 iyul tarixində Gürcüstanın Parlament Bürosu "Salam Platforması"nın "Mülki aktlar haqqında qanuna dəyişiklər edilməsi barədə" Gürcüstan qanun layihəsinə istinad edən qanunvericilik təşəbbüsünü müzakirə edib.

Qanun layihəsi vətəndaşa qeyri-səciyyəvi/qeyri-ənənəvi şəkilçiləri ("ov"/"yev" və b.) soyadından çıxarmaq və ənənəvi/orijinal şəkilçilərlə əvəz etmək hüququnu verir.

Parlament Bürosunun qərarı ilə qanunvericilik təşəbbüsü baxılması üçün Parlamentin Prosessual Məsələlər və Qaydalar Komitəsinə təqdim edilib.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.